Uşaqlar üçün Müqəddəs Kitab
təqdim edir



# Allahın Güclü Adamı - Şimşon

Müəllif: Edward Hughes

İllüstrasiya edən: Janie Forest; Alastair Paterson

Uyğunlaşdıran: Lyn Doerksen

Tərcümə edən: Günay Əsədova

Təqdim edən: Bible for Children
www.M1914.org

©2021 Bible for Children, Inc.
Lisenziya: Bu kitabı satmamaq şərti ilə kitabın surətini çıxarda bilmək hüququna maliksiniz.

Uzun illər əvvəl İsrail torpağında Manoah adlı bir adam yaşayırdı. Onun və arvadının övladı yox idi. Bir gün Rəbbin mələyi onun arvadına göründü.



O dedi: “Sənin çox xüsusi bir övladın olacaq”.

O, bu gözəl xəbəri ərinə dedi.  Manoah dua etdi: “Ya Rəbb… yenidən yanımıza gəl.  Doğulacaq uşaq barəsində nə edəcəyimizi bizə öyrət”.





Mələk Manoaha dedi ki, uşağın saçı heç vaxt kəsilməməlidir, heç vaxt alkoqollu içki içməməlidir və heç vaxt müəyyən yeməkləri yeməməlidir. Allah bu övladı hakim olmaq üçün seçib. O, İsrailə başçılıq edəcək.





Sözsüz ki, Allahın xalqına kömək lazım idi. Onlar Allahdan uzaqlaşdıqlarını hiss etdilər, düşmənləri Filiştlilər də onlara hədə-qorxu gəlirdi.



Amma onlar dua edəndə Allah eşitdi.  O, dünyanın ən güclü adamı olacaq bu körpəni göndərdi.

Beləliklə, qadın bir oğul doğdu və onun adını Şimşon qoydu, körpə böyüdü və Rəbb ona xeyir-dua verdi.  Rəbbin Ruhu



onunla hərəkət etməyə  başladı. Şimşon çox güclü oldu.  Bir gün o, əlində heç bir şey olmadan gənc aslanla savaşdı və onu öldürdü!



Sonra Şimşon ölü aslanın leşində yuva salan arı sürüsünün balının dadına baxdı.  O, tapmaca düzəltdi: “Yeyəndən bir yeməli şey



Heç kim bunun açmasını tapa bilmədi, lakin Şimşonun yeni Filiştli arvadı onun dostlarına dedi.  Bu, Şimşonu çox qəzəbləndirdi.

Filiştlilər Şimşonun arvadını onun dostunun arvadı olması üçün verəndə Şimşon daha da qəzəbləndi.  O, qisas almağı planlaşdırdı.  Ancaq necə?



Əvvəlcə Şimşon 300 tülkü tutdu. Sonra o, tülkürlərin quyruqlarını cüt-cüt bir-birinə bağladı və onların quyruqlarının arasına bir məşəl qoydu.



Sonra Şimşon tülküləri Filiştlilərin taxıl zəmilərinə buraxdı!



İndi Filiştlilər qisas almaq istəyirdilər. Şimşon Filiştlilər tərəfindən tutulmasına, əl-qolunun bağlanmasına vəc öldürülməsinə izin verdi.



Lakin Rəbbin Ruhu Şimşonun üzərinə endi. O, kəndirləri qırdı, ölü eşşəyin çənə sümüyünü götürdü və 1000 Filiştlini öldürdü.



Filiştli axtarış dəstələri Şimşonu axtardılar. Bir gecə onlar şəhərdə Şimşona tələ qurdular və şəhər darvazalarını qıfılladılar. Lakin Şimşon şəhər darvazaların ı öz çiyinlərində daşıyaraq şəhərdən çıxdı!



Amma Şimşon Allahın dediyini etmədi. O, Allaha itaət edəndə Allah ona güc verirdi. Bir gün Şimşon öz gücünün sirrini gözəl Filiştli casusla, Delila ilə bölüşdü. Şimşon yatarkən Delila bir adama onun saçlarını qırxdırdı.





Sonra Filiştlilər Delilanın yataq otağında Şimşona hücum etdilər. Şimşon çətinliklə döyüşdü, onun gücü getmişdi.





Düşmənləri onun gözlərini çıxartdılar. Kor və zəif Şimşon Filiştlilərin quluna çevrildi. Onlar ona güldülər və Allahın xidmətçisini ələ saldılar.

Filiştlilərin ziyafəti var idi.
Onlar Şimşonu onlara
təslim etdiyinə görə
öz balıq allahlarını,
Daqonu alqışladılar.
Onlar Daqonun
məbədində yeyib-
içdilər və şənlik etdilər.
Sonra onları əyləndirmək
üçün Şimşonu çağırdılar.



Oğlan Şimşonu gətirdi və ona məbədi saxlayan sütunlara söykənməyə izin verdi. Orada Şimşonu ələ salan 3000 Filiştli və



məbəddə bundan da çox adam var idi.

Lakin zindanda Şimşonun saçları uzanmağa başlamışdı.  İndi o dua etdi: “Ya Rəbb Allah, sadəcə bir dəfə məni qüvvətləndir



ki, mən iki gözümə görə qisas ala bilim”.

Allah yenidən Şimşona güc verəcəkmi? Şimşon mümkün olmayanı edə biləcəkmi?

BƏLİ!

BƏLİ!



Şimşon güclənərək, nəhəng dirəkləri yerindən tərpətdi və məbədin damını dağıtdı.  Daqonun məbədi minlərlə Filiştlini və Şimşonu da öldürərək dağıldı!



# Allahın Güclü Adamı - Şimşon

Allahın Sözü, Müqəddəs Kitabdan olan bir hekayədir

Hakimlər 13-16

"Kəlamının açıqlanması nur saçır".
Məzmur 119:130

Son

Bu Müqəddəs Kitab hekayəsi bizə, bizi yaradan və Onu tanımağımızı istəyən Allahımızdan bəhs edir.

Allah, Onun günah adlandırdığı pis şeyləri etdiyimizi bilir. Günahın cəzası ölümdür, lakin Allah səni o qədər çox sevir ki, O, Öz yeganə Oğlunu, İsanı Çarmıxda ölmək və sənin günahlarına görə cəzalandırılmaq üçün göndərdi. Sonra İsa dirildi və Göylərə getdi! Əgər sən İsaya inansan və Ondan günahlarını bağışlamasını diləsən, O, bunu edəcək!; O indi gələcək və daxilində yaşayacaq və sən əbədiyyən Onunla birlikdə yaşayacaqsan.

Əgər sən bunların həqiqət
olduğuna inanırsansa, onda bunu Allaha de:
Əziz İsa, mən inanıram ki, Sən Allahsan və
mənim günahlarıma görə ölmək üçün insan oldun
və indi Sən yenidən yaşayırsan.  Xahiş edirəm,
həyatıma gəl və mənim günahlarımı bağışla ki,
mən indi yeni həyata malik ola və bir gün Səninlə
birlikdə əbədiyyən yaşaya bilim.  Sənə itaət
etməkdə və Sənin övladın kimi yaşamaqda mənə
kömək et.  Amin.

**Müqəddəs Kitabı oxu və hər gün**
**Allahla danış!   Yəhya 3:16**